# "AZƏRBAYCAN UŞAQ ƏDƏBİYYATI BİBLİOQRAFİYASI" GÖSTƏRİCİSİNİN TƏHLİLİ

**Validə Quliyeva**

*BDU, Biblioqrafiyaşünaslıq kafedrasının magistrantı*

Firudin bəy Köçərli adına Respublika Uşaq Kitabxanası tərəfindən müstəqillik illərində ərsəyə gələn, Azərbaycan uşaq ədəbiyyatına həsr edilmiş biblioqrafik göstərici bu sahədə ilk fundamental biblioqrafiyadır. Kitabxananın direktoru, Əməkdar mədəniyyət işçisi Şəhla Qəmbərova və Sevil Əhmədova tərəfindən tərtib edilmiş, dosent Nadir İsmayılovun rəyçisi olduğu biblioqrafiya üç cilddən ibarətdir. Mövcud biblioqrafiyanın tərtibində əsas məqsəd uşaq ədəbiyyatımızın tarixini araşdıraraq, uşaq ədəbiyyatı nümunələrini üzə çıxartmaq və tədqiqatçıların diqqətinə çatdırmaqdır. Kitabda verilən məlumatlar XIX yüzilliyin ortalarından başlayaraq XX əsrin iyirminci illərinə, sovet dönəminin başlanğıcına qədərki dövrü əhatə edir. Bu geniş əhatəli biblioqrafiyanın əsas məğzini nəzərdə tutulan dövrdə çap olunmuş uşaq ədəbiyyatı, təhsil müəssiələrində istifadə edilən dərsliklər, XX əsrin əvvəllərində meydana gəlmiş uşaq mətbuatı təşkil edir. Biblioqrafiya I cild 3 hissə və hər bir hissə üçün nəzərdə tutulmuş əlavələrdən ibarətdir. "Üç cildlik Azərbaycan uşaq ədəbiyyatı" adlı göstərici ədəbiyyatşünas alimlər, tədqiqatçılar, kitabxanaçı-biblioqraflar, metodistlər, müəllimlər, eləcə də geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur. Göstərici forma-struktur baxımından üç bölməyə ayrılır:

1. Dərsliklər;
2. Uşaqlar və gənclər üçün oxu (qiraət) kitabları;
3. Uşaq mətbuatı.

Birinci bölmə XIX əsrin ortalarından – ilk ana dilli dərsliyimizdən başlayıb 1920-ci ilə qədərki məktəb dərsliklərini əhatə edir. İkinci bölmədə də tərtibçilər birinci bölmədəki prinsipi davam etdirirlər. Bölmənin birinci hissəsində XIX əsrin ortalarından (uşaq ədəbiyyatımızın təşəkkül çağından) 1920-ci ilə qədər uşaqların və gənclərin mütaliəsi üçün nəşr olunmuş qiraət (oxu) kitablarının siyahısı verilir. Tarixi-xronoloji ardıcıllıq prinsipi ilə tərtib edilmiş siyahıda kitabların müəlliflərinin və özlərinin adları, habelə kitablara aid qısa biblioqrafik bilgilər öz əksini tapır. Biblioqrafiyanın üçüncü bölməsi uşaq mətbuatına həsr edilmişdir.

Məlumdur ki, 1920-ci ilə qədər Azərbaycanda uşaqlardan ötrü üç jurnal nəşr edilirdi. Bunlar "Dəbistan" (1906-1908), "Rəhbər" (1906-1907) və "Məktəb" (1911-1920) jurnallarıdır. "Dəbistan"ın 23, "Rəhbər"in cəmi 5, "Məktəb"in isə təxminən 95 nömrəsi işıq üzü görmüşdür.

Biblioqrafiya XIX əsrin ortalarından XX əsrin iyirminci illərinə qədər Azərbaycanda nəşr olunan uşaq ədəbiyyatı nümunələrini əks etdirir. Biblioqrafiyada əks olunan əsərlərin bir çoxu illəri adlayaraq dövrümüzə qədər gəlib çatmış, dəfələrlə nəşr olunmuş, uşaq və yeniyetmələrin tərbiyəsində mühüm rol oynamış və indi də öz əhəmiyyətini saxlayır. Biblioqrafiyada eyni zamanda nəzərdə tutulmuş dövrdə tərtib edilərək çap olunmuş və təhsil müəssisələrində istifadə edilən dərsliklər də öz əksini tapmışdır. "Vətən dili" (A. Çernyayevski), "Uşaq gözlüyü", "Gülzar" (A. Şaiq), "Birinci il", "İkinci il", "Yeni məktəb" (M. Mahmudbəyov), "Ədəbiyyat məcmuəsi" (F. Ağayev), "Bəsirətül-ətfal", "Uşaq bağçası" (R. Əfəndiyev) və s. kimi dərsliklərin (əldə olunan nüsxələrinin) içi tamamilə açılmışdır. Bu da həmin dərsliklərin müxtəlif illərdəki nəşrlərinin müqayisəsi üçün şərait yaradır. Biblioqrafiyanın "Əlavələr" hissəsi də müvafiq olaraq dərsliklərə və bədii ədəbiyyata həsr edilmişdir. Dərsliklər və uşaq ədəbiyyatı bölmələrində yalnız kitabın təsviri və içində olan materiallara aydınlıq gətirilirsə, əlavələrdə həmin kitablarda verilən şəkillər, titul vərəqində və yaxud kitabın sonunda verilən şeir parçaları, qeydlər, biblioqrafik məlumatlar istifadəçilərə çatdırılır. "Əlavələr" bölməsində bir çox bədii əsərin qısa məzmunu oxucuların diqqətinə çatdırılır. Sonda "Müəlliflərin əlifba göstəricisi", "Sərlövhələrin əlifba göstəricisi", "Azərbaycan uşaq mətbuatında dərc olunmuş müəlliflərin əlifba göstəricisi" və "Kitabların yerləşdiyi yer" adlı köməkçi aparat istifadəçilərin ixtiyarına verilmişdir. Respublikamızda biblioqrafik fəaliyyət sferasında tərtib olunmuş bu fundamental biblioqrafiyanın əsas məğzini uşaq ədəbiyyatımızın tarixini araşdıraraq uşaq ədəbiyyatı nümunələrini üzə çıxartmaq və tədqiqatçıların diqqətinə çatdırmaqdan təşkil edir.